# Ermənistan yenə odla oynayır

## İrəvanın çirkin oyunları daha genişmiqyaslı təxribatlara hazırlıq məqsədi daşıyır

**Havadarlarından hərtərəfli dəstək alan Ermənistanın son günlərdə Azərbaycanla şərti sərhəddə təxribatları genişləndirməyə çalışdığı müşahidə olunur.**

Ermənistan silahlı qüvvələrinə məxsus kvadrokopter vasitəsilə ordumuzun Tovuz rayonunun Ağdam yaşayış məntəqəsi, daha sonra Laçın rayonu istiqamətində yerləşən mövqelərimiz üzərində kəşfiyyat uçuşları həyata keçirməyə cəhd göstərməsi bunu bir daha təsdiqləyir.

Azərbaycan Müdafiə Nazirliyi bununla bağlı Ermənistan tərəfinə növbəti dəfə xəbərdarlıq edib. Qeyd olunub ki, Ermənistan və havadarları Cənubi Qafqaz regionunda yeni müharibə ocağı yaratmaq kimi niyyətlərindən çəkinməlidirlər. Ölkəmizə qarşı bu kimi təxribat əməlləri dayandırılmadığı təqdirdə, Azərbaycan Silahlı Qüvvələrinin arsenalında olan bütün vasitələrdən istifadə edərək özünümüdafiə məqsədilə lazımi cavab tədbirləri görəcək. Regionda vəziyyətin gərginləşməsinə görə bütün məsuliyyətin Ermənistanın hərbi-siyasi rəhbərliyinin və onun havadarlarının üzərinə düşdüyü də vurğulanıb.

Hərbi ekspert Ədalət Verdiyev qəzetimizə açıqlamasında deyib ki, son günlər Ermənistan silahlı qüvvələri Azərbaycanla sərhəddə müəyyən təxribatlara yol verirlər. O vurğulayıb ki, bu təxribatlar ABŞ və Avropa İttifaqından göstərilən hərbi-siyasi yardımlar nəticəsində mümkün olur. Çünki Ermənistan Azərbaycana qarşı təxribatlar törədəcək potensialını çoxdan itirib: "Hazırda Ermənistanın törətdiyi təxribatlar daha genişmiqyaslı təxribatlara hazırlıq məqsədi daşıyır. Azərbaycan Ordusunun yerləşdiyi mövqe-



lər istiqamətində kəşfiyyat xarakterli PUA uçuşları həyata keçirmək Ermənistan üçün ağrılı-acılı nəticələrə gətirib çıxaracaq. Daha əvvəl Tovuz, sonra Laçın istiqamətində ordumuzun mövqelərinin dəqiqləşdirilməsi məqsədilə həyata keçirilən uçuşlar növbəti döyüş əməliyyatlarına hazırlıq kimi qiymətləndirilir".

Azərbaycanla sülh müqaviləsinin bağlanmasını Ermənistan baş naziri səviyyəsində artıq arxa plana keçirildiyini deyən ekspert bildirib ki, Londonda görüşdən imtina edən Nikol Paşinyan bunu bir daha nümayiş etdirib. Yəni Ermənistan yalnız sözdə sülhdən danışır, əməldə isə bir tərəfdən Azərbaycanla sülh müzakirəsindən yayınır, digər tərəfdən isə Paşinyanın vəzifəyə təyin etdiyi şəxslər ölkəmizə qarşı ərazi iddiaları səsləndirir, güc tətbiqini mümkün hesab edirlər. "Ardınca erməni ordusu həm atəşkəsi pozur, həm də kəşfiyyat xarakterli uçuşlar həyata keçirir. Bütün bunlar onu göstərir ki, Azərbaycan Ordusu fərari erməni ordusunu ağır şəkildə cəzalandırmayana qədər Ermənistan hərbi-siyasi rəhbərliyi özünə gəlməyəcək", - deyə o əlavə edib.

***Əsmər QABİLQIZI,***
***"Azərbaycan"***

azerbaijan-news.az

Azərbaycan.- 2024.- 1 avqust (№ 161).- S.8.